***Sani HACİYEV*** *

# AVROPA DÖVLƏTLƏRİNİN OSMANLI ERMƏNİLƏRİ İLƏ BAĞLI "HİMAYƏDARLIQ" SİYASƏTİNİN MAHİYYƏTİ

**Açar sözlər:** Osmanlı dövləti, hüquq, imtiyaz, tolerantlıq, ermənilər
**Key words:** The Ottoman Empire, law, privilege, tolerance, the Armenians
**Ключевые слова:** Османское государство, право, привилегия, толерантность, армяне

Məlumdur ki, 1453-cü ildə İstanbulun Osmanlı türkləri tərəfindən fəthi ilə varlığına son qoyulan Bizans imperiyası etnik quruluşuna və etnik idarəçiliyinə görə fenomen bir dövlət olmuşdur. Bu imperiya özünü Romanın varisi olaraq qəbul etdiyi üçün, sayca üstünlük təşkil edən yunan xalqı da özünü uzun müddət "romei" (ρωμαίοί) olaraq adlandırmışdır. Bu imperiyanın ərazisində yaşayan digər xalqlar da "romei" adı altında qalmış, Şərq ölkələrində "rumilər" olaraq tanınmışdır.

Osmanlı dövlətinin qurulduğu ilk mərhələdə də bu imperiyanın ərazilərində yaşayan xalqlar, o cümlədən yunanlar və ermənilər Osmanlı imperiyasını Bizansın varisi olaraq görmüş, Osmanlı türklərinin xristian xalqlara qarşı tolerant davranışı isə bu fikirləri bir qədər də dərinləşdirmiş, yunanlar və ermənilər, bir qədər sonrakı dönəmdə (Pireney yarımadasında Rekonkista nəticəsində yəhudilərin İspaniyadan qovulmasından sonra) yəhudilərin Osmanlı imperiyasının siyasi və sosial-iqtisadi həyatına inteqrasiyası güclənmişdir. XVII əsrin ortalarından etibarən qeyri-müsəlmanlar, xüsusilə ermənilər Osmanlı imperiyasında yüksək dövlət vəzifələri tutmağa başlamışlar. Məhz bu səbəbdəndir ki, Avropa dövlətlərinin Osmanlı imperiyasının daxili işlərinə müdaxilə etmələrinə qədər, bir neçə əsr boyunca yunanların və ermənilərin türk müsəlman hakimiyyətinə qarşı üsyanları böyük miqyaslı olmamış, lokal xarakter daşımışdır.

XVIII-XIX əsrlərin hüdudunda Osmanlı imperiyasında başlayan hərbi-siyasi və sosial-iqtisadi problemlər, Avropa dövlətlərinin müstəmləkəçi siyasətinin güclənməsi və bu dövlətlərin Osmanlı imperiyasını gücdən salıb onu yarımmüstəmləkəyə çevirmək istəyinin artması Osmanlı imperiyasının xrisitan əhalisi (həmçinin müsəlman kürd və ərəb xalqları) arasında milli düşüncələrin ortaya çıxmasına və türk hakimiyyətinə qarşı mücadiləsinə gətirib çıxarır.

Tarixən dövlətçilik sistemi olmayan, böyük imperiyaların vilayətləri və ya ən yaxşı halda bu imperiyalardan vassal asılılığında əmirlik/knyazlıq halında yaşayan ermənilərdə də bu dövrdə ayrı millət və milli dövlət qurmağa qadir olma düşüncəsi ortaya çıxmağa başlayır. Bu da Osmanlı imperiyasının erməniləri arasında millətçiliyin, milli ayrı-seçkiliyin yaranmasına və sonucda digər millətlərə, xüsusilə türk-müsəlman əhaliyə qarşı ermənilər tərəfindən həyata keçirilən soyqırımlarına gətirib çıxarmışdır. Böyük dövlətlər, o cümlədən Rusiya və İngiltərə tərəfindən böyük maliyyə və hərbi dəstək alan erməni millətçiləri terror və soyqırımı siyasətini genişləndirməklə, təkcə Anadoluda deyil, Qafqazda da böyük etnik münaqişələrin yaranma mənbəyi olmuşlar.

Müsəlman dövləti olan Osmanlı imperiyasında şəriət qeyri-müsəlmanlara böyük imtiyazlar vermişdi: ibadət, məhkəmə, təhsil hüququ ilə yanaşı, qeyri-müsəlmanlar dövlətdə yüksək vəzifə tutmaq, can və mallarının təhlükəsizliyinin təminatını almışdılar (1, s.41-42). Bu hüquqlardan əsrlər boyu yararlanan ermənilər imperiyanın ən böyük mərkəzlərində yaşamış, onların qurmuş olduqları yüzlərlə dini qurum, təhsil ocağı, ticarət şəbəkəsi təhlükəsiz şəraitdə fəaliyyət göstərmişdir.

Avropa dövlətlərinin, ələlxüsus Rusiya imperiyasının Osmanlı dövləti ilə aparmış olduqları müharibələr XVIII əsrin sonlarından etibarən vəziyyətə dəyişməyə başlamışdır: Qərb dövlətləri Osmanlı imperiyasının daxili işlərinə ən fəal şəkildə müdaxilə etmək üçün qeyri-müsəlman xalqların hüquqlarının "müdafiəçisi" qismində çıxış etmiş və bu xalqlar üçün öz dövlətlərində öz vətəndaşlarının sahib olmadıqları hüquqları istəməyə başlamışlar. Xüsusilə 1774-cü il Küçük Kaynarca sülhündən sonra Rusiya Osmanlı imperiyası ərazisində yaşayan xristian xalqların siaysi hüquqlarını genişləndirməyi tələb etmişdir (3, s.8).

Vəziyyət XIX əsrdə daha da təhlükəli şəkil almağa başlamış, Avropa dövlətlərinin Osmanlı imperiyasının daxili işlərinə qarışma cəhdləri güclənmiş, dövlətin ərazisində yaşayan qeyri-müsəlman xalqlarının imtiyazları türk-müsəlman xalqları ilə müqayisədə kəskin şəkildə genişləndirilmiş, nəticədə bu sonuncuların hüquqları məhdudlaşdırılmışdır.

* **prof. Haciyev Sani** - Bakı Dövlət Universiteti

Osmanlı sultanlarının qeyri-müsəlmanlara, xüsusilə ermənilərə verdikləri imtiyazlar 1839-cu il Fərmanı, 1878-ci il Berlin kongresi və 1908-ci il Ana Yasası (Konstitutsiyası) ilə bir qədər də genişləndirilmiş, beynəlxalq səciyyə almışdır. Hətta 1863-cü ildə ermənilərə xüsusi imtiyazlar verən "Nizamnameyi Milleti Ermeniyan" adlı Sənəd imzalanmışdır (3, s.9). Bu imtiyazlar əsasən aşağıdakılardan ibarət olmuşdur:

Erməni camaatı dini və dünyəvi işlərini görmək üçün bir rəis (patrik) seçmək hüququna sahibdir;

Kilsə, xəstəxana, yetimxana, qəbiristanlıq və bu kimi dini və xeyriyyə qurumlarını inşa etmək, onların idarəsi erməni camaatına aiddir;

Dini və dünyəvi işləri görmək üçün patrik məclis təşkil edə və icraedici qərarlar verə bilər;

Cəza işləmiş ruhani xüsusi yerlərdə saxlanılmalıdır;

Cəza işləmiş ruhaninin məhkəməsi dini və ya dünyəvi məclisdə baxılır (yəni şəriətə aid deyil);

Evlənmə, boşanma, cehiz, nafaka və mirasla bağlı məsələlərə patrik baxır;

Vəfat edən ruhaninin mirası xeyriyyə qurumlarına, patrikxananın binalarının inşasına və s. xərclənir (3, s.9).

1839 və 1856-cı il Fərmanları və 1876-cı il Ana Yasasına görə qeyri-müsəlmanlara, yəni həm də ermənilərə verilən hüquqlar isə aşağıdakılar olmuşdur:

Osmanlı dövlətində yaşayan hər kəsin, irqindən və dinindən asılı olmayaraq, can, mal və namusunun təhlükəsizliyi dövlətin təminatı altındadır;

Osmanlı dövlətinin bütün təbəələri qanun qarşısında bərabərdirlər;

Dil, din, irq etibarilə bir xalqı digərindən üstün tutan təbirlər və sözlər yazışmalardan götürüləcəkdir;

Heç kim dinini dəyişdirməyə məcbur edilməyəcəkdir. Hər kəs sərbəst ibadət hüququna sahibdir;

Milli ayrı-seçkiliyə yol verilmədən hər kəs dövlət məmurluğuna girə biləcəkdir;

Qanunla nəzərdə tutulmuş cəzalar xaricində, heç kəs fiziki cəza almayacaqdır, heç kimə işgəncə verilməyəcəkdir;

Vilayət və sancaq məclislərində müsəlmanlarla qeyri-müsəlmanlar bərabər səsə sahibdirlər və səsvermənin nəticələrinə qarışılmasına yol verilməyəcəkdir;





Bütün Osmanlı təbəələrindən vergi alınacaqdır;

Müsəlmanlar və qeyri-müsəlmanlar hüquq və vəzifələrində bərabər olacaqdır, hərbi xidmət göstərəcəkdir. Hərbi xidmət əvəzinə xüsusi vergi ödəyə biləcəkdir;

Camaatlara aid məktəblər, xəstəxanalar, qəbiristanlıqların təmiri onlara aid olacaqdır, lakin bəzi hallarda dövlət tərəfindən yardım alacaqdır;

Mətbuat azad olacaqdır;

Osmanlı təbəələri qanun çərşivəsində dərnəklər və şirkətlər qurmaq, toplanmaq hüququna sahibdirlər;

Hər camaatın öz ruhani başçısı və dövlətin təyin etdiyi ayrıca bir məmuru olacaqdır (3, s.10-11).

1908-ci il Ana Yasasında isə bu hüquqlar bir qədər də genişləndirilmişdir. Belə ki, bu Qanunun 8-ci maddəsinə uyğun olaraq Osmanlı imperiyasının bütün təbəələri dinindən və milli mənsubiyyətindən asılı olmayaraq, "Osmanlı" adlandırılmağa başlamış, 11-ci maddəsində uyğun olaraq isə bütün camaatlara dini imtiyazlar verilmişdir. Yenə 1908-ci il Ana Yasasının 17-ci maddəsinə görə, bütün "osmanlıların qanun qarşısında bərabər olduğu" təsbit edilmişdir (3, s.11-12).

Yuxarıda nəzərdən keçirdiyimiz siyasi hüquqlar, əslində Osmanlı təbəələrinin sosial, iqtisadi və mədəni həyatını da tənzimləyirdi. Bu hüquqlardan hərtərəfli istifadə edən ermənilər Osmanlı imperiyasının bütün vilayət və şəhərlərində, dövlət qulluğunda, ələlxüsusi diplomatiyada, həmçinin maliyyə qurumlarında və ticarətdə aparıcı mövqe qazana bilmişdilər. Türkiyə tarixçisi Əzmi Süslü çox doğru olaraq göstərir ki, bu hüquq və imtiyazlar "dövlət güclü olduğu zamanlarda ermənilərin yararına olmuş, dövlət zəifləməyə başlayanda isə, həm Qərb dövlətləri, həm də bəzi erməni qrupları tərəfindən geri dönüşü olmayan təzyiq və müdaxilə vasitəsi kimi istifadə edilmişdir" (3, s.12-13).

Ermənilərin Osmanlı imperiyasında böyük iqtisadi gücə sahib olduqlarını, sosial həyatda fəal olduqlarını erməni tarixçiləri də etiraf edirlər. Məsələn, O.Oskanyan soyadlı tarixçi yazır ki, "erməni camaatı Türkiyədə gündəlik həyatın əsasını təşkil etmişdir. Çünki uzun müddətdir ki, xidmətdən daha çox idarə etməyə alışmış türklər sənayenin bütün sahələrini onların öhdəsinə buraxmışdılar. Bu səbəbdən də, Türkiyədəki bank sahibləri, tacirlər, sənayeçilər demək olar ki, hamısı ermənilər idi. Digər tərəfdən,

onlarla müsəlmanlar arasında bir mənfəət birliyi var idi ... Bu baxımdan ermənilər türklərə rahat uyğunlaşmış, əmin-amanlıqlarını əldə edərək ən nüfuzlu rəiyətə çevrilmişdilər" (8, s.353).

Ermənilərin Osmanlı imperiyasındakı yüksək sosial durumunu bu ölkədə olmuş Avropa müəllifləri, o cümlədən diplomatları da təsdiqləyirdilər. Məsələn, 1835-1839-cu illərdə Osmanlı ərazisində yaşamış Helmut von Moltke ermənilərə verilən imtiyazlar səbəbindən onların əldə etdikləri sosial mövqe ilə bağlı yazır ki, "Ermənilərə əslində xristian türklər demək olar" (6, s.50). İngilislərin "Mavi Kitab"ında isə yazılır: "Məharətləri və özəllikləri hesabına ermənilər Türkiyənin sənaye, ticarət, maliyyə və intellektual fəaliyyətlərinin böyük bir hissəsini ələ keçirmişlər" (3, s.14-15).

Ermənilərin Osmanlı imperiyasında sosial və iqtisadi durumu 1827-ci ildən sonra daha da möhkəmlənmişdilər. Belə ki, həmin il Yunanıstana müstəqillik verilməsilə Osmanlı imperiyasındakı yüksək məmur vəzifələrinin bir çoxu (nazir, diplomat, saray həkimi, hakim, vəkil və d.) yunanlardan ermənilərə keçmiş, yunanların böyük bir qisminin Yunanıstana köçməsi nəticəsində, bir çox şəhərlərdə ticarət və maliyyə idarəçiliyi ermənilərin əlinə keçmişdir. Bundan əlavə, ermənilərin siyasi mövqeyi də güclənmiş, Məclisə seçilən erməni deputatlarının sayı artmışdır. Məsələn, 1910-cu il seçkiləri nəticəsində, parlamentdəki 276 millət vəkilindən 49-u xristian, o cümlədən, 11-i erməni olmuşdur: Kirkor Zahrab (İstanbul), Bedros Hallacyan (İstanbul), Agop Babikyan (Tekirdağ), Agop Boyacıyan (Kozan), Nazaret Dağavuryan (İzmir), İstepan İspartaliyan (İzmir), Karakin Pastırmacıyan (Ərzurum), Varteks Serengülyan (Ərzurum), Hambarsum Boyacıyan (Maraş), Kegam Dergarabetyan (Muş), Vahan Papazyan (Muş) (7, s.69-70). Məsələnin ən ağrılı tərəfi odur ki, bu millət vəkillərinin bəziləri (məsələn, Karakin Pastırmacıyan) tutduqları yüksək dövlət mövqeyinə baxmayaraq, Birinci Dünya müharibəsi başladığında Osmanlı imperiyasına münasibətdə xəyanət yolu tutmuş, türk-müsəlman əhaliyə qarşı törədilən qətliamlarda fəal iştirak etmişlər (3, s.16).

Yuxarıda nəzərdən keçirdiyimiz qısa icmaldan da gördüyümüz kimi, ermənilər Osmanlı imperiyasında ən yüksək sosial mövqeyi olan qeyri-türk camaatı olmuşdur. Əsrlər boyu Osmanlı dövlətinin imtiyazlarından, güzəştlərindən, tolerantlığından faydalanan ermənilər heç bir xristian dövlətində görmədikləri mədəni davranışı görmüşlər, heç bir xristian dövlətində sahib olmadıqları hüquqlara sahib olmuşlar.

Lakin XVIII əsrin sonlarından etibarən Osmanlı imperiyasının qeyri-türk əhalisi, ələlxüsus xristian təbəələri arasında sosial gərginliyin artması müşahidə olunur. Bu gərginlik ilk başlarda sadəcə lokal toqquşmalar, daha sonra iri üsyanlar şəklində genişlənir. XIX əsrin sonlarından başlayaraq ermənilərin təşkilatlanması güclənir və yaranan erməni təşkilatları siyasi hədəflərini həyata keçirmək üçün hərbi qarşıdurma və terror siyasətini həyata keçirməyə başlayırlar. Hərbi toqquşmalar Osmanlı ordusuna qarşı çevrilmişdisə, terror siyasəti dinc türk-müsəlman əhalisinə qarşı həyata keçirilirdi.

Ermənilərin təşkilatlanması və erməni terrorçi təşkilatlarının fəaliyyətə keçməsi Osmanlı imperiyası uğrunda iri dövlətlərin mübarizəsinin qızışdığı bir şəraitdə baş vermişdi və Rusiyanın, İngiltərənin və Fransanın Osmanlı dövlətinin daxili işlərinə müdaxiləsi ilə müşayiət olunurdu. Əslində baş verən hadisələr – yəni bir tərəfdən, ermənilərin təşkilatlanması və erməni üsyanları, digər tərəfdən isə – Avropa dövlətlərinin Osmanlıya qarşı hərəkətləri vahid bir hadisənin iki tərəfi idi: hədəf Osmanlı imperiyasını hərbi və siyasi baxımdan gücdən salmaq, iqtisadi baxımdan asılı vəziyyətə gətirmək və üçüncü dərəcəli dövlətə çevirmək idi. Ermənilər bu hədəfdə sadəcə bir vasitə idilər.

Yuxarıda nəzərdən keçirdiyimiz hədəfin həyata keçirilməsi yolunda ən böyük "fəaliyyət" Rusiya imperiyasına aid idi: xüsusilə 1829-cu il Ədirnə sülhünün imzalanmasından sonra bu dövlətin Qafqazlarda güclənməsi, Şərqi Anadoluya nüfuz siyasətini də genişləndirmişdi. Rusiya bu bölgələrdə möhkəmlənmək siyasətini həyata keçirmək üçün hərbi-siyasi yollarla yanaşı, ermənilərin silahlandırılması, erməni təşkilatlarının hərbi və maddi dəstək alması, ermənilərin türk-müsəlman əhaliyə qarşı soyqırımı siyasətini genişləndirməsinə sövq etməyi də vasitə seçmişdilər.

Hələ I Pyotrun dövründə (1689-1725) Rusiyanın Cənubı Qafqazda və Şərqi Anadoluda iqtisadi və hərbi-siyasi baxımdan möhkəmlənmək cəhdləri başlayır. Çar I Pyotrun 10 noyabr 1724-cü il tarixli fərmanında qeyd olunurdu ki, "Rusiyanın dünya ağalığı üçün paytaxtın İstanbulda olması gərəkdir. Bizə qonşu olan dövlətlərdə - İranda, Türkiyədə və Azərbaycanda möhkəmlənməyimiz üçün onları bir-birindən həmişə təcrid etməyimiz lazımdır. Bunun üçün həmin dövlətlər arasında sünni-şiə ixtilafı

salmağımız gərəkdir" (5, s.34). Başqa sözlə desək, çarizm Qafqazda və Anadoluda möhkəmlənmək üçün bölgənin türk əhalisini zəiflədəcək ermənilər köçürməyi qarşısına məqsəd qoymuşdu. Təsadüfi deyil ki, Osmanlı imperiyası ilə bağladığı 1829-cu il Ədirnə müqaviləsində ermənilərin Cənubi Qafqaza kütləvi köçürülməsi ilə bağlı xüsusi maddələr var idi: müqavilənin 13-cü maddəsi ermənilərin Azərbaycan torpaqlarına köçürülməsini rəsmiləşdirirdi. Bu maddəyə görə, ermənilər 18 ay müddətində Rusiya təbəəliyinə keçmək hüququ qazanmışdılar. Artıq 1829-cu il oktyabrın 10-da general Paskeviç imperator I Nikolaya yazdığı raportunda 10 min erməninin Gürcüstanda və qondarma "Erməni vilayəti"ndə yerləşdirilməsinə icazə istəmişdi (9, VII, s.830). İ.Şopenin məlumatlarına görə, qondarma "Erməni vilayəti"nə Osmanlı imperiyası ərazisindən 3682 erməni ailəsi köçürülmüşdü (12, s.636-642). Rəsmi məlumatlara görə, ümumilikdə 1828-1830-cu illər arasında Şimali Azərbaycana İrandan 40 min, Osmanlı imperiyasından isə 90 min erməni köçürülmüşdü (10). 1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsindən sonra isə 400 minə yaxın erməni Azərbaycan ərazisinə köçürülmüşdü (11, s.59-61, 63).

Ermənilərin Qafqazda və Anadoluda terror və soyqırımı siyasəti 1914-cü ildə Birinci Dünya müharibəsinin başlaması ilə daha mütəşəkkil şəklil alır. Bu fəaliyyət Osmanlı arxiv sənədlərində geniş əks olunmuşdur. Əsasən Başbakanlıq Osmanlı Arxivində toplanan bu sənədlər erməni təşkilatlarının Osmanlı imperiyası və Qafqaz ərazisindəki terroçu fəaliyyətini və türk-müsəlman əhaliyə qarşı həyata keçirdikləri qətliamları sənədli şəkildə sübut edir. Bunlar əsasən aşağıdakı sənədlərdir:

**Dahiliye Nezareti Evrakı**
Dahiliye şifre
Dahiliye Emniyyet-i Umumiyye
Komisyon-ı Mahsus: 3/18, 1/337, 3/41
**Hariciye Nezareti Evrakı**
Harb-i Umumi
Hukuk Müşavirliği İstişare Odası
Mütareke Evrakı
Siyasi Kalemi
**Meclis-i Vükela Mazbataları**





Bu sənədlərin böyük bir qismi Osmanlıca, bir qismi isə Avropa dillərindədir. 900-dən çox sənəddə toplanmış materiallar 1914-1918-ci illərdə istər Şərqi Anadolunun, istərsə də Azərbaycanın (özəlliklə Qarabağın) türk-müsəlman əhalisinin ermənilər tərəfindən böyük bir soyqırımına məruz qaldığını göstərir. Şərqi Anadoluda və Azərbaycan ərazisində aparılan araşdırmalar nəticəsində toplu məzarlıklarda aşkar olunan erməni qətllərinin səbəbindən yüz minlərcə türk-müsəlman əhalinin qalıqlarının rəsmi tərəfi məhz bu sənədlərdir. Bu sənədlərdə, həmçinin, Rusiyanın Osmanlı ermənilərinə göstərdiyi himayə, o cümlədən ermənilərin silahlandırılması, erməni fədailərinin xüsusi düşərgələrdə hərbi məşqlər keçməsi, köç edən ermənilərin Rusiya ərazisində (dəqiq desək, Azərbaycan ərazisində) yerləşdirilməsi, yerləşdirilən ermənilərin Azərbaycanın türk-müsəlman əhalisinə qarşı talançılıq və soyqırımı siyasəti, Rusiyanın erməni məsələsi ilə əlaqədar diplomatik fəaliyyəti də əksini tapmışdır.

Böyük dövlətlərin Osmanlı imperiyasını zəiflətmək, onun ərazisini bölüşdürmək siyasəti yolunda bir vasitə olaraq gördükləri erməni təbəələrinin XVIII əsrin sonlarından etibarən talançı, dağıdıcı və terror fəaliyyəti nəinki türk-müsəlman əhaliyə qarşı soyqırımları və qətliamlara səbəb olmuşdur, eyni zamanda Anadoluda və Qafqaz bölgəsində sonrakı yüzilliklərdə də böyük hərbi-siyasi və etnik toqquşmalara və müharibələrə səbəb olacaq hadisələrə təkan vermişdir.

Birinci Dünya müharibəsi illərində Osmanlı imperiyasında mövcud olan erməni komitələrinin fəaliyyəti, Bitlis, Van, Elazığ, Muş, Diyarbəkir, Ərzurum bölgələrində baş verən erməni terroru ilə bağlı toplanmış materiallar göstərir ki, Birinci Dünya müharibəsi illərində ermənilərin Şərqi Anadoluda və Qarabağda törətdikləri qətliamlar arasında təşkilati əlaqə mövcud olmuşdur. Bu əlaqə erməni qətliamlarının pərakəndə deyıl, sistemli şəkildə həyata keçirildiyini və Anadoluda və Azərbaycanda türk-müsəlman əhalinin fiziki məhvini məqsəd olaraq qarşıya qoyduğunu bir daha sübut edir.

### İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Abdulkadir Şener. İslam Hukukunda Gayr-i Müslimler. Dokuz Eylül Üniversitesi – İlahiyat Fakültesi, Türk Tarihinde Ermeniler Sempozyumu Kitabı, İzmir, 1983, s.41-56
2. Arşiv belgeleriyle ermeni faaliyetleri. 1914-1918. Cilt 1. Ankara, Genelkurmay Basımevi, 2005 – 653 s.

3. Azmi Süslü. Ermeniler ve 1915 Tehcir Olayı. Yüzüncü Yıl Üniversitesi, Van, 1990 – 244 s.
4. Başbakanlık Osmanlı Arşivi. Türkiye Cümhüriyeti Başbakanlık Devlet Arşivleri Genel Müdirliği
5. Məmmədov N. Dağlıq Qarabağ gerçəklikləri: soyqırımı, terror, deportasiya, işğal (XX yüzillik). Bakı, Təhsil, 2009 – 272 s.
6. Nejat Göyünç. Osmanlı idaresinde Ermeniler. İstanbul, Gültepe Yayınları, 1983 – 117 s.
7. Osman Karabıyık. Türk-Ermeni münasebetlerinin Dünü, Bugünü. İstanbul, Hizmet Ltd, 1984 – 304 s.
8. Oscanyan O. The Sultan and his People. London, 1957 – 383 p.
9. Акты, собранные Кавказской Археографической Комиссией. I-VII, Тифлис, 1866-1878
10. Глинка С.Н. Описание переселения армян аддербиджанских в пределы России. Москва, Типография Лазаревского Института восточных языков, 1831. – 144 с.
11. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье. СПб., Рус. собрание, 1911. - 78 с.
12. Шопен И.И. Исторический памятник состояния армянской области в эпоху ее присоединения к Российской империи. СПб., Тип. Имп. Акад. наук, 1852

## THE ESSENCE OF THE "PATRONIZING" POLICY OF THE EUROPEAN COUNTRIES ON THE OTTOMAN ARMENIANS
## SUMMARY

The great powers' struggle for the division of the world got a giant scale with the launch of the World War I. The territories of the Ottoman Empire became the center of this struggle. Entente countries tried to lift up the non-Turkic people living in the territory of the Ottoman Empire. They wanted to overcome the front of the Ottoman Empire and implement the policy of its territory division as well. Sometimes, by winning huge success, those attempts had caused the disintegration of the Ottoman Empire from the political and military points of view. A great place was provided for the Armenians by large states in this process.

For many centuries, seeing the religious and ethnic tolerance of Turks and gaining great privileges the Armenians played the role of the "Fifth Column" in the Ottoman Empire. At the same time, being not satisfied with their activities the Armenian nationalists implemented terror, plunder and genocide against the Turkish-Muslim population in the Ottoman Empire and Caucasus.

The Armenian barbarism of 1914-1918 found its reflection in the archive documents, including Archives of the Ottoman Prime Ministry. These documents reveal the truth about the genocides committed by the Armenians in Anatolia and the Caucasus and prove the malevolence of the Armenian historians, nationalists and their patrons who presented the relocation events to the world as the "Armenian genocide".





## СУЩНОСТЬ «ПОКРОВИТЕЛЬСТВЕННОЙ» ПОЛИТИКИ ЕВРОПЕЙСКИХ ДЕРЖАВ В ОТНОШЕНИИ АРМЯНСКОГО НАСЕЛЕНИЯ ОСМАНСКОГО ГОСУДАРСТВА
## РЕЗЮМЕ

С началом Первой мировой войны борьба великих держав за передел мира приобрела огромные масштабы, и территория Османского государства стала центром этой борьбы. Государства Антанты, чтобы окончательно победить Османское государство, а также с целью распределить ее территории, стремились расширить восстания нетюркских народов, проживающих на территории этой мусульманской империи. Временами эти усилия были очень успешными и приводили к политическому разделу Османского государства. Империалистические силы особое место в этой борьбе уделяли армянам.

На протяжении веков армяне, к которым Османское правительство относилось веротерпимо, в XIX веке получили огромные привилегии, и стали играть роль «пятой колонны» в Османском государстве. В то же время армянские политические организации осуществляли террор в отношении тюрко-мусульманского населения в Османском государстве и на Кавказе.

Зверства армян против тюрко-мусульманского населения в 1914-1918 годы нашли отражение в различных источниках, в том числе в архивных документах Османского государства в Стамбуле. Эти документы не только раскрывают правду о геноциде, совершенном армянами в Анатолии и на Кавказе, но и разоблачают фальсификации армянских историков, которые представляют события 1915 года как «геноцид армян».